## AUDİTOR RƏYİ*      AUDİTOR OPİNİON *

## SERİYA SA № 080

---

### MÜSTƏQİL AUDİTORUN RƏYİ

### "Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti

( Ünvan: Bakı şəhəri, M.Ə.Sabir küçəsi, ev №03)

Mən, Azərbaycan Respublikasının Auditorlar Palatasının 29 dekabr 2006 il tarixli qeydiyyat №-si 031 530, seriya SA080 saylı lisenziyasına əsasən,VÖİN 1300257862, fəaliyyət göstərən, Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü **SƏRBƏST AUDİTOR – AXUNDOV VAQİF XƏLİL OĞLU** və "ATƏŞGAH " Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti (bundan sonra mətndə "Sığorta Şirkəti" adlandırılajaq) ilə 22 dekabr 2010 cu il tarixli AP 01 saylı bağlanmış müqaviləyə əsasən Sığorta Şirkətinin 01 yanvar 2010 cu il tarixdən 31 dekabr 2010 cu il tarixədək olan dövr ərzində illik maliyyə hesabatlarının auditini apardım.
Auditə 13 mart 2011 ci il tarixində başlandı və 18 mart 2011 ci il tarixində başa çatdı.
***Rəhbərliyin Məsuliyyəti*** -Hazırki maliyyə hesabatlarının hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: fırıldaçılıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və etdirilməsi, mövcud uçot siyasətinin seçilməsi və tətbiq edilməsi,və şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsindən ibarətdir.
***Auditorun Məsuliyyəti*** -Mənim məsuliyyəti apardığım audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən audit yoxlamanı Beynəlxalq Audit Standartlarına əsasən apardım. Həmin Standartların tələbinə görə mən etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparma -lıyam ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olum.
Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedураların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risqlərinin qiymətləndirilməsindən asılıdır. Bundan əlavə audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.
Mən hesab edirəm ki, bu rəyə əlavə olunmuş auditorun hesabatına əsaslanaraq, əldə etdiyim auditor sübutu rəyimi bildirmək üçün yetərli və müvafiq əsasını təmin edir.

Beləki, Sığorta Şirkətinin illik maliyyə hesabatları Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına qismən uyğunlaşdırılaraq Sığorta Təşkilatlarından tələb olunan maliyyə hesabatları formaları əsasında tərtib edilmişdir.

***Şərtsiz Müsbət Rəy*** -Mənim fikrimcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından 31 dekabr 2010 cu il tarixinə Sığorta Şirkətinin maliyyə vəziyyətini, həmin tarixdə tamamlanan il üzrə «illik maliyyə hesabatları» ( mənfəət və zərər hesabatı, səhmdar kapitalında dəyişikliklər hesabatı və pul vəsaitlərinin axını) ilkin sənədlərlə uyğunluq təşkil edir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Sığorta Təşkilatlarından tələb olunan maliyyə hesabatları düzgün tərtib edilib və ədalətli təsəvvür yaradır.
Auditorun rəyi «28» mart 2011 ci il tarixdə qüvvəyə malik olmaqla iki nüsxədə tərtib olundu. Bunların bir nüsxəsi sifarişçi təsərrüfat subyektində, o biri nüsxəsi isə Sərbəst auditorda qaldı.

Azərbaycan Respublikası Auditorlar Palatasının
Üzvü Sərbəst Auditor ____________________ V.X.AXUNDOV

22 dekabr 2010 cu il tarixli AP 01 saylı
müqaviləyə əsasən göstərilmiş auditor xidməti işlərinin
***TƏHVİL-QƏBUL AKTI***

Biz aşağıda imza edənlər, İcraçı Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü **Sərbəst Auditoru Vaqif Xəlil oğlu Axundov** bir tərəf, **«ATƏŞGAH »Sığorta Şirkəti ASC İcraçı Direktoru SMAQA İQOR ANATOLYEVİÇ** ikinci tərəf, bu aktı ona görə tərtib edirik ki, İcraçı tərəfindən auditor xidməti tam şəkildə 22 dekabr 2010 cu il tarixli AP 01 saylı bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq yerinə yetirilmişdir.

Görülmüş işlrin nətigələrinə görə Sifarişçiyə aşağıdakılar təhvil verilmişdir:

1.Auditorun Hesabatı - vərəq,
2.Rəy - 1 vərəq.

| **TƏHVİL VERDİ** | **TƏHVİL ALDI**: |
|---|---|
| **İCRAÇI**:<br>**AUDİTORLAR PALATSININ ÜZVÜ SƏRBƏST AUDİTOR** | **SİFARİŞÇİ**:<br>**«ATƏŞGAH » SIĞORTA ŞİRKƏTİ Açıq Səhmdar Cəmiyyətinin İcraçı Direktoru SMAQA İQOR ANATOLYEVİÇ** |
| **V.X.AXUNDOV** | |
| ___________________ | ______________________ |

«28 » **mart** 2011 **il**